# Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Qəbələ rayonunda vətəndaşları qəbul edib

Mərkəzi icra hakimiyyəti orqanlarının, dövlət qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq aprelin 19-da Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Qəbələdə vətəndaşları qəbul edib.

Qəbulda Qəbələ rayonunun sakinləri ilə yanaşı İsmayıllı, Şamaxı və Qobustan rayonlarının sakinləri, o cümlədən həmin rayonlarda məskunlaşmış məcburi köçkünlər iştirak ediblər.

Qəbuldan əvvəl Məleykə Abbaszadə və Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzindəki abidəsi önünə gül dəstələri düzüb, xatirəsini dərin ehtiramla yad ediblər.





Qəbələ Mədəniyyət Mərkəzində keçirilən görüşdə əsasən ümumi və tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları, ali təhsil müəssisələrinin magistraturalarına qəbul, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanlarının yeni qaydaları, əvvəlki illərin məzunlarının kolleclərə qəbulu, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, dövlət qulluğu sertifikatının alınması və s. məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciətlər edilib.

Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

Qeydiyyatdan keçənlərlə yanaşı görüş zamanı birbaşa müraciət edən vətəndaşlar da direktorlar şurasının sədri tərəfindən dinlənilib və onların müraciətlərinin həlli üçün müvafiq tədbirlər görülüb.

**«Qəbələ»**
**İlkin Vəlizadə (foto).**

# Zona yarışı keçirilmişdir



Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Qəbələ Stend Atıcılığı Kompleksində 19 aprel 2019-cu il tarixdə Yeniyetmələrin XII Respublika Oyunlarının proqramına daxil olan güllə atıcılığı üzrə zona yarışları keçirilmişdir.

Zona birinciliyinin açılış mərasimində Gənclər və İdman Nazirliyinin əməkdaşı Ülviyyə Hacıyeva və Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov çıxış edərək respublikada idmana və idmançılara göstərilən dövlət qayğısından, Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasından danışmış və komandalara uğurlar arzulamışlar.

Komanda və fərdi xarakter daşıyan zona yarışlarında respublikanın 10 şəhər və rayonundan 50-dək idmançı mübarizə aparmışdır.

Yarışın nəticəsinə əsasən Oğuz rayonunun komandası I yeri və Qax rayonunun komandası II yeri tutaraq Sumqayıt şəhərində keçiriləcək final mərhələsinə vəsiqə qazanmışlar.

**Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Kütləvi tibbi müayinələr davam edir

*Rayonumuzda əhalinin kütləvi tibbi müayinədən keçirilməsi aksiyası mütəşəkkil qaydada davam edir. Fevralın 12-də başlanan aksiya çərçivəsində bu günədək 46 min 309 min nəfərdən çox rayon sakini tibbi müayinədən keçib. Rayonun 29 yaşayış məntəqəsində, həmçinin 90 idarə, müəssisə və təşkilatlarda tibbi müayinələr başa çatıb.*

*18 yaşdan yuxarı 74 mindən çox insanın müayinədən keçirilməsi nəzərdə tutulan rayonumuzda indiyədək müayinə olunanların 2 min 298 nəfəri ambulator, 264 nəfər isə stasionar müalicəyə cəlb edilib, 126 nəfər isə müalicə üçün paytaxtın tibb müəssisələrinə göndərilib. 86 xəstə üzərində isə cərrahiyyə əməliyyatı aparılıb.*

***"Qəbələ"***

# Fəaliyyət istiqamətləri müzakirə olunub

Ekologiya və Təbii Sərvətlər və İqtisadiyyat nazirliklərinin təşkilatçılığı ilə Qəbələdə bərk məişət və plastik tullantıların idarə edilməsinin təkmilləşdirilməsi sahəsində görülən tədbirlərlə əlaqədar rayonunun yerli özünüidarəetmə orqanlarının nümayəndələri və sahibkarlarla görüş keçirilib.

Görüşdə Prezident İlham Əliyevin bu il fevralın 7-də imzaladığı Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirlərinin azaldılması üzrə 2019-2020-ci illər üçün Tədbirlər Planı"ndan irəli gələn məsələlər, mövcud vəziyyət, problemlər və onların həlli yolları haqqında geniş təqdimat keçirilib.

Daha sonra bərk məişət və plastik tullantıların idarə edilməsinin təkmilləşdirilməsi sahəsində qəbul olunmuş strateji sənədlər və fəaliyyət istiqamətləri müzakirə olunub.

**Rais RƏŞİDOV,**
**"Qəbələ"**

# Bu il Azərbaycanda əhalinin növbəti siyahıyaalınması keçiriləcək

Bu il oktyabrın 1-dən 10-dək ölkəmizdə əhalinin növbəti siyahıyaalınmasının keçirilməsi nəzərdə tutulub. Bununla bağlı Prezident İlham Əliyev 2016-cı il sentyabrın 7-də fərman imzalayıb.

Əhalinin siyahıyaalınması müəyyən bir zaman kəsiyində ölkədə əhalinin faktiki vəziyyətini görməyə, dəyişiklikləri təhlil etməyə və proqnoz verməyə imkan yaradır. Əhalinin siyahıyaalınmasının əhəmiyyəti əhalinin hətta kiçik bir məskunlaşma yerində olsa belə həyat fəaliyyətini hərtərəfli xarakterizə edən kompleks göstəriciləri əldə etməyə imkan verir. Məsələn, yalnız siyahıyaalma məlumatlarına əsasən əhalinin təhsil səviyyəsinə, yaşayış üçün əsas gəlir mənbəyinə dair məlumatları əldə etmək olar. Ayrılıqda şəhər və qəsəbələr, bütövlükdə ölkə üzrə ailələrin sayını, onların tərkibini, yaşayış üçün gəlir mənbələrini və ev təsərrüfatlarının mənzil şəraitini öyrənmək mümkündür.

2019-cu ildə əhalinin siyahıyaalınması milli səviyyədə demoqrafik




və sosial-iqtisadi inkişafa dair proqnozların hazırlanması ilə yanaşı, beynəlxalq tövsiyələr və milli prioritetlər əsasında ölkədə əhalinin son siyahıyaalınmasından ötən dövrdə əhali haqqında dəqiq və müfəssəl məlumatların əldə edilməsinə imkan yaradacaq. Eləcə də dövlət başçısının 29 dekabr 2012-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasından irəli gələn hədəflərin qiymətləndirilməsində mühüm rol oynayacaq.

Siyahıyaalınmadan əldə ediləcək statistik məlumatlar Azərbaycanın gələcək inkişaf prioritetlərinin düzgün müəyyənləşdirilməsində əsas informasiya mənbəyi olacaq.